**UOT 37.0**

***Ülviyyə Fikrət qızı Nağıyeva***
*fəlsəfə doktoru proqramı üzrə dissertant*
*Naxçıvan Dövlət Universiteti*

# PEDAQOJİ ALİ MƏKTƏBLƏRDƏ GƏLƏCƏK İBTİDAİ SİNİF MÜƏLLİMLƏRİNİN PEDAQOJİ TƏCRÜBƏSİNİN TƏŞKİLİ (TARİXİ ASPEKT)

***Ульвия Фикрет гызы Нагиева***
*диссертант по программе доктора философии*
*Нахчеванский Государственный Университет*

# ОРГАНИЗАЦИЯ ПЕДАГОГИЧЕСКОЙ ПРАКТИКИ БУДУЩИХ УЧИТЕЛЕЙ НАЧАЛЬНЫХ КЛАССОВ В ПЕДАГОГИЧЕСКИХ ВУЗАХ (ИСТОРИЧЕСКИЙ АСПЕКТ)

***Ulviya Fikrat Naghieva***
*doctorial student in the program of doctor of philosophy*
*Nakhchevan State University*

# ORGANİZATİON OF PEDAGOGİCAL PRACTİCE OF FUTURE TEACHERS OF PRİMARY SCHOOL İN PEDAGOGİCAL UNİVERSİTİES (HİSTORİCAL ASPECT)

**Xülasə.** Azərbaycan ali pedaqoji məktəblərində gələcək müəllimlərin pedaqoji təcrübəsinin təşkili Azərbaycan Pedaqoji İnstitutunun (indiki ADPU) yaranması ilə bağlıdır. Sovet dövründə pedaqoji təcrübənin təşkili ilə bağlı bütün normativ sənədlər Moskvada hazırlanırdı. Bütün sənədlərdə birmənalı olaraq pedaqoji təcrübə müəllim hazırlığının ən mühüm mərhələsi hesab olunurdu. Gələcək ali təhsilli ibtidai sinif müəllimlərinin pedaqoji təcrübəsinin təşkilinə XX əsrin 60-cı illərinin əvvəllərində başlanılmışdır. Bu sahədə xeyli təcrübə toplanmışdır. Məqalədə gələcək ibtidai sinif müəllimlərinin pedaqoji təcrübəsi tarixi aspektdən araşdırılmış, müqayisəli şəkildə təhlil olunmuşdur.

***Açar sözlər:*** *ibtidai sinif müəllimi, ali təhsil, pedaqoji təcrübə, müəllim, şagird, kompetensiya*

**Резюме.** Организация педагогической практики будущих учителей в азербайджанских педагогических вузах связана с созданием Азербайджанского педагогического института (ныне АГПУ). В советское время все нормативные документы, касающиеся организации педагогической практики, готовились в Москве. Во всех документах важнейшим этапом подготовки учителя считался педагогический стаж. Организация педагогической практики будущих учителей начальных классов с высшим образованием началась в начале 60-х годов XX века. В этой области накоплен большой опыт. В статье рассматривается и сравнительно анализируется педагогический опыт будущих учителей начальных классов с исторической точки зрения.

***Ключевые слова:*** *учитель начальных классов, высшее образование, педагогическая практика, учитель, ученик, компетентность*

**Summary.** Organization of pedagogical practices of future teachers in Azerbaijani pedagogical universities is associated with the creation of the Azerbaijan Pedagogical Institute (now the AGPU). During the Soviet period, all the normative documents of the organization of pedagogical practice were prepared in Moscow. In all documents the most important stage of preparation of the teacher was considered pedagogical experience. The organization of pedagogical practices of future teachers of primary classes with higher education began in the early 60s of the twentieth century. There is a lot of experience in this area. The article considers and comparatively analyzes the pedagogical experience of future teachers of primary school with a historical point of view.

***Key words:*** *primary school teacher, higher education, pedagogical practice, teacher, student, competence*

İbtidai məktəb müəllimi hazırlığında pedaqoji təcrübənin zəruriliyinin əsaslandırılması görkəmli rus pedaqoqu K.D. Uşinskinin adı ilə bağlıdır. O, 1861-ci ildə hazırladığı "Müəllim seminariyasının layihəsi"ndə gələcək ibtidai məktəb müəllimlərinin pedaqoji təcrübəsinin təşkili qaydalarını izah etmiş, bu məqsədlə yaradılacaq müəllimlər seminariyalarının nəzdində ibtidai məktəblərin təşkilini vacib bilmişdi. K.D. Uşinski yazırdı: *"Tibb fakültəsi üçün klinika nə qədər vacibdirsə, seminariya üçün də nümunə məktəbi o qədər vacibdir"* [1,s.157].

Azərbaycanlı ibtidai məktəb müəllimi hazırlığını həyata keçirən Zaqafqaziya Müəllimlər Seminariyasının Azərbaycan şöbəsinin (1879-1918) və İrəvan Müəllimlər Seminariyasının (1881-1918) nəzdində seminaristlərin pedaqoji təcrübə keçmələri üçün nümunə məktəbi fəaliyyət göstərirdi. Gələcək ibtidai məktəb müəllimlərinə seminariyanın III tədris ilində praktik fənlər və pedaqoji təcrübə keçirilirdi. Hər bir tələbə 4 fəndən 5 və ya 6 sınaq dərsi (cəmi 20) keçməli idi.

Pedaqoji təcrübə sahəsində yaranan bu ənənə Azərbaycan Xalq Cümhuriyyəti dövründə Qori Müəllimlər Seminariyasının Azərbaycan şöbəsi əsasında Qazaxda təşkil edilən seminariyada həyata keçirildi. Azərbaycan sovetləşdiriləndən sonra, 1921-ci ildə Ali Pedaqoji İnstitut (indiki Azərbaycan Dövlət Pedaqoji Universiteti) təşkil edildi. İnstitutun ilk tədris planına gələcək müəllimlərin pedaqoji, uşaq və yeniyetmələrlə, əhali ilə sosial iş təcrübəsi daxil edildi. Gələcək müəllimlərin pedaqoji təcrübə keçmələri üçün 1922/23-cü tədris ilində A. Şaiqin yaratdığı 12 №-li məktəb F. Rzabəyli tərəfindən Ali Pedaqoji İnstitutunun binasına köçürüldü və burada Nümunə məktəbi kimi fəaliyyət göstərməyə başladı. 1926/27-ci tədris ilinin sonuna kimi Ali Pedaqoji İnstitutun tələbələrinin pedaqoji təcrübəsi həmin məktəbdə təşkil edilmişdir [2,s. 56].

20-ci illərdə ali pedaqoji təhsilin inkişafında, müəllim kadrları hazırlığında, onların pedaqoji təcrübəsinin təşkilində 1924-cü ildə keçirilmiş pedaqoji təhsil üzrə Ümumrusiya konfransı mühüm rol oynadı. 20-ci illərdə İttifaqda pedaqoji nəzəriyyələrin formalaşdırılmasında, ali pedaqoji təhsil quruculuğunda mühüm rolu olan S.T. Şatski də müəllimlərin pedaqoji hazırlığı prosesində nəzəriyyə ilə təcrübənin vəhdətinə böyük əhəmiyyət verirdi. O hesab edirdi ki, *"gənc müəllimlər canlı, geniş, həyat yönümlü pedaqoji mühitdə təhsil almalı, nəzəri biliklərini praktikaya tətbiq etməyi bacarmalıdır"*[3, s.69]. Ona görə də gələcək müəllimlərin 1-ci kursdan 4-cü kursa kimi pedaqoji təcrübədə olması, ildən-ilə pedaqoji təcrübənin məzmununun və təşkilinin təkmilləşdirilməsi vacib hesab olundu.

1930-cu ildə Ali Pedaqoji İnstitutun (indiki ADPU) yenidən təşkilindən sonra hazırlanan tədris planında pedaqoji fənlərin öyrədilməsinə və ümumtəhsil məktəblərində pedaqoji təcrübənin təşkilinə ayrılan vaxt artırıldı. SSRİ Mərkəzi İcraiyyə Komitəsinin 19 sentyabr 1932-ci il tarixli "Ali məktəb və texnikumlarda tədris planları və rejimi haqqında" qərarda qeyd olunurdu ki, "tələbələrin metodiki hazırlığında, onların pedaqoji bacarıqlarının inkişaf etdirilməsində nəzəri hazırlıqla yanaşı, pedaqoji təcrübə də həlledici rol oynayır. Pedaqoji təcrübə tələbəyə pedaqoji bacarıqlara yiyələnmək imkanı verir" [4]. Gələcək müəllimlərin peşə hazırlığında pedaqoji təcrübənin oynadığı rolun yüksək qiymətləndirilməsinin nəticəsi idi ki, 1938-ci ildə "SSRİ ali təhsil müəssisələri tələbələrinin isthesalat təcrübəsi haqqında Əsasnamə" təsdiq edildi, tələbələr üçün pedaqoji təcrübənin təşkili və aparılması ilə bağlı təlimatlar hazırlandı.

50-60-cı illərdə həm keçmiş İttifaqda, həm də Azərbaycanda gələcək müəllimlərin pedaqoji təcrübəsinin təşkilində xeyli müsbət təcrübə toplandı. 1958/59-cu tədris ilində respublikada ali təhsilli ibtidai sinif müəllimi hazırlığına başlanıldı.

60-cı illərdə keçmiş İttifaqda, o cümlədən Azərbaycanda məktəbyaşlı uşaqların sayının artması yeni məktəb şəbəkəsinin yaranmasına, bu da ölkədə müəllim kadrlarında çatışmazlığa səbəb oldu. Çatışmazlığı aradan qaldırmaq məqsədilə pedaqoji təcrübənin stajkeçmə formasının tətbiqinə başlanıldı. Təcrübəçi tələbələrin məktəblərdə bir semestr tam ştatlı müəllim kimi fəaliyyət göstərməsinə icazə verildi. Tədris planlarında nəzəri saatların həcmi azaldıldı. Təcrübənin müddəti 30 həftəyədək artırıldı. Bu da tələbələrin nəzəri hazırlığında müəyyən boşluqların yaranmasına səbəb oldu. Pedaqoji təcrübə müddətinin artırılması tədqiqatçıların fikrincə, gələcək müəllimlərin peşə-pedaqoji hazırlığında əhəmiyyətli dəyişikliklərə səbəb olmadı.

14 iyul 1960-cı ildə "Tələbələrin pedaqoji təcrübəsinin təşkili və onların pedaqoji işə hazırlığının yaxşılaşdırılması tədbirləri haqqında" qəbul edilən qərar gələcək müəllimlərin pedaqoji təcrübəsinin təkmilləşdirilməsində əhəmiyyətli rol oynadı. Pedaqoji təcrübə rəhbərliyinə (pedaqoq, psixoloq, metodist) daha təcrübəli professor-müəllimlərin cəlb edilməsi qərara alındı.

1970/71-ci tədris ilində müəllim hazırlığını həyata keçirən ali təhsil müəssisələrində yeni tədris planlarının tətbiqinə başlanıldı. Burada tələbələrin nəzəri hazırlığının xüsusi çəkisi artırılsa da, gələcək müəllimlərin nəzəri və praktiki hazırlığını əlaqələndirmək məqsədilə ümumtəhsil məktəbləri ilə əməkdaşlığın genişləndirilməsinə üstünlük verildi. Tədris planında pedaqoji təcrübə ilə nəzəri kursların öyrənilməsi arasında optimal əlaqənin yaradılması, tələbələrin uğurlu pedaqoji fəaliyyət üçün zəruri pedaqoji bilik və bacarıqlarla silahlandırılması, tədris prosesində tələbələrin müstəqilliyinin və yaradıcılıq fəaliyyətinin təmin edilməsi önə çəkildi.

1972-ci ildə respublikada müəllim hazırlığı ilə bağlı pedaqoji təcrübənin aşağıdakı növlərini əhatə edən yeni proqram işlənib hazırlandı və təsdiq edildi: I-II kurslarda tanışlıq təcrübəsi, II-III kurslarda yay tədris təcrübəsi, III-IV kurslarda (qiyabi şöbələrdə V kurslarda) məktəb təcrübəsi. Həmin dövrdə tələbələrin pedaqoji təcrübəsi ilə bərabər yay pedaqoji təcrübəsi də təşkil edilirdi. Tələbələr yay aylarında pedaqoji təhsil müəssisələri tərəfindən rayon, şəhər xalq maarif şöbələrinin sərəncamına göndərilirdilər. Tələbələr yay tətili günlərində şəhərtipli və ya şəhərətrafı pioner düşərgələrində, pioner evlərində, şagirdlərin əmək birliklərində, uşaq sağlamlıq meydançalarında məktəblilərin asudə vaxtlarının səmərəli keçirilməsinə rəhbərlik edir, məktəbdənkənar müəssisələrdə (uşaq idman məktəbləri, uşaq-gənclər yaradıcılıq mərkəzləri) məsləhətçi kimi fəaliyyət göstərirdilər. Tələbələrə pedaqoji təhsil müəssisələrinin pedaqogika kafedralarının professor-müəllimləri rəhbərlik edirdi. Tələbələr fərdi plan əsasında fəaliyyət göstərirdilər. Onların bu fəaliyyəti pedaqoqlar tərəfindən "məqbul"la qiymətləndirilirdi. Tələbələr pioner baş dəstə rəhbəri və ya tərbiyəçi-müəllim funksiyasını yerinə yetirirdilər. Deməli, tələbələrin I tədris ilindən başlayan pedaqoji təcrübəsi fasiləsiz olaraq davam edirdi. Pedaqoji təcrübənin təşkilinə belə yanaşma yüksək keyfiyyətli müəllim kadrları hazırlığına xidmət edirdi. Təcrübənin məqsədi tələbələrdə peşə-pedaqoji bacarıqlarını və peşə keyfiyyətlərini formalaşdırmaqdan, onları tərbiyəçi-müəllim kimi yetisdirməkdən ibarət idi.

Keçən əsrin 80-ci illərinin sonu, 90-cu illərinin əvvəllərində ali pedaqoji təhsil sisteminin yenidən qurulması sahəsində əsaslı dəyişiklik baş verdi ki, bunun da nəticəsində yeni nəsil pedaqoji kadrların hazırlanması prosesi intensivləşdirildi. Azərbaycan müstəqillik qazandıqdan sonra milli ali pedaqoji təhsil sistemi formalaşmağa başladı. 1992-ci ildə Təhsil haqqında Azərbaycan Respublikasının ilk qanunu qəbul edildi. Təhsilin demokratikləşməsi, humanistləşdirilməsi və diferensiallaşdırılması prinsiplərinin həyata keçirilməsinə başlanıldı. 70 il müddətində respublikanın ali məktəblərində pedaqoji təcrübənin məzmununun və təşkilinin təkmilləşdirilməsi, gələcək müəllimlərin uşaqlarla işləməsi sahəsində zəngin təcrübə toplanmışdı. Gələcək ibtidai sinif müəllimlərinin pedaqoji təcrübəsinin təşkili və keçirilməsi ilə bağlı ibtidai sinif müəllimi hazırlığında böyük ənənəyə malik olan Azərbaycan Dövlət Pedaqoji İnstitutunda (indiki ADPU) xeyli metodik vəsait hazırlanmışdı.

XX əsrin 90-cı illərin əvvəllərində pedaqoji təcrübənin təşkilinə ikili yanaşma mövcud idi. Birincisi, tədris illəri boyunca fasiləsiz olaraq pedaqoji təcrübənin təlim prosesi ilə əlaqəli şəkildə təşkili idi ki, bu yanaşma 70 il müddətində mövcud olmuşdu. İkinci yanaşma xarici təcrübəyə əsaslanırdı: ümumi nəzəri hazırlıq-praktikum, seminar, treninq, sonda pedaqoji təcrübə.

90-cı illərdə və 2000-ci illərin əvvəllərində gələcək ibtidai sinif müəllimlərinin pedaqoji təcrübəsinin təşkili Azərbaycan Respublikası Nazirlər Kabinetinin 17 fevral 1994-cü il tarixli məktubu əsasında tənzimlənmişdir.

Azərbaycan Respublikası Nazirlər Kabineti 19 sentyabr 2008-ci ildə "Ali (orta ixtisas) təhsil müəssisələri tələbələrinin ixtisas üzrə təcrübəsinin keçirilməsi haqqında Əsasnamə" [5] təsdiq etmişdir.

"İbtidai sinif müəllimliyi" (050118) ixtisasının 2009-cu ildə təsdiq edilən tədris planında gələcək ibtidai sinif müəllimlərinin pedaqoji təcrübəsi 18 həftə (36 kredit) nəzərdə tutulmuşdu. Tələbələr II tədris ilində 4 həftə (8 kredit),

III tədris ilində 9 həftə (18 kredit), IV tədris ilində 5 həftə (10 kredit) Bakının innovativ məktəblərində təcrübə keçirdilər.

2014-cü ildə təsdiq edilmiş təhsil proqramına əsasən pedaqoji təcrübənin müddəti 14 həftə müəyyən edildi və IV tədris ilinin yaz semestri (VIII semestr) ərzində keçirilməsi nəzərdə tutuldu. Digər müəllimlik ixtisaslarında pedaqoji təcrübənin müddəti 8 həftədən 14 həftəyə yüksəldildiyi halda, ibtidai sinif müəllimliyi ixtisasında əksinə oldu. Belə ki, ibtidai sinif müəllimliyi ixtisasında pedaqoji təcrübəyə ayrılan 18 həftəlik vaxt 14 həftəyə endirildi. Riyaziyyat, kimya, biologiya, tarix, fizika, texnologiya, informatika, xarici dil (ingilis, fransız), musiqi, təsviri sənət müəllimliyi ixtisasında tələbələri 14 həftə ərzində 12 sınaq dərsi (6-sı icmalla, 6-sı planla), ibtidai sinif müəllimliyi ixtisasında isə həmin müddətdə tələbələrin 17 sınaq dərsi (13-ü icmalla, 4-ü planla) deməsi nəzərdə tutuldu. İbtidai sinif müəllimliyi ixtisasında tələbələr 7 fəndən (ana dili, riyaziyyat, həyat bilgisi, texnologiya, musiqi, fiziki tərbiyə, təsviri incəsənət) 17 saat sınaq dərsi deməli olduqları halda, digər ixtisaslarda 1 fəndən 12 saat sınaq dərsi deyirdilər. Azərbaycan dili və ədəbiyyatı, riyaziyyat və informatika, kimya və biologiya, tarix və coğrafiya, fiziki tərbiyə və gənclərin çağırışaqədər hazırlığı müəllimliyi ixtisasında 2 yerə bölünürdü. Deməli, ibtidai sinif müəllimliyi ixtisasına ayrılan vaxtın 4 həftə azaldılması yanlış addım idi ki, bu da ibtidai sinif müəllimi hazırlığına öz təsirini göstərməyə bilməzdi.

Həmin dövrdə ibtidai sinif müəllimliyi ixtisası üzrə qiyabi formada da müəllim hazırlığı aparıldığından qiyabi təhsil forması üzrə pedaqoji təcrübənin 8 həftə müddətində, V tədris ilinin son semestrində aparılması nəzərdə tutulmuşdu. İbtidai sinif müəllimi hazırlığını həyata keçirən ali pedaqoji təhsil müəssisələrində pedaqoji təcrübəyə ayrılan saatlar və deyiləcək sınaq dərslərinin miqdarı aşağıdakı kimi bölünmüşdü.

***Cədvəl 1.***

*Pedaqoji təcrübəyə ayrılan saatlar və sınaq dərslərinin sayı*

| № | Əməkdaşlar | Əyani təhsil forması | | Qiyabi təhsil forması | |
|---|---|---|---|---|---|
| | | saat | dərslərin sayı | Saat | dərslərin sayı |
| | **Ali məktəb üzrə** | | | | |
| 1 | İxtisas metodisti | 30 | 12 | 20 | 8 |
| 2 | Pedaqoq | 4 | | 4 | |
| 3 | Psixoloq | 2 | | 2 | |
| 4 | Pedaqoji təcrübə rəhbəri | 1 | | 1 | |
| | Cəmi | 37 | | 29 | |
| | **Məktəb üzrə** | | | | |
| 1 | Məktəb direktoru | 1 | | 1 | |
| 2 | Direktor müavini | 1 | | 1 | |
| 3 | Fənn müəllimi | 16 | | 8 | |
| 4 | Sinif rəhbəri | 1 | | 1 | |
| | Cəmi | 19 | | 11 | |

Məktəb üzrə bölgüdə sinif rəhbəri üçün nəzərdə tutulan 1 saat sinif müəllimi üçün nəzərdə tutulmuş saata əlavə olunur.

"İbtidai sinif müəllimliyi" ixtisası üzrə pedaqoji təcrübədə metodistlərə ayrılan saatlar və deyiləcək dərslərin miqdarı aşağıdakı kimi bölünmüşdü.

***Cədvəl 2.***
*"İbtidai sinif müəllimliyi" ixtisası üzrə pedaqoji təcrübəyə ayrılan saatlar və sınaq dərslərinin sayı*

| № | Əməkdaşlar | Əyani təhsil forması | | Qiyabi təhsil forması | |
|---|---|---|---|---|---|
| | | saat | dərslərin sayı | saat | dərslərin sayı |
| 1. | Ana dili | 9 | 3/2 | 5 | 2/1 |
| 2. | Riyaziyyat | 9 | 3/2 | 5 | 2/1 |
| 3. | Həyat bilgisi | 3 | 2/0 | 2 | 1/0 |
| 4. | Texnologiya | 3 | 2/0 | 2 | 1/0 |
| 5. | Musiqi | 2 | 1/0 | 2 | 1/0 |
| 6. | Fiziki tərbiyə | 2 | 1/0 | 2 | 1/0 |
| 7. | Təsviri incəsənət | 2 | 1/0 | 2 | 1/0 |
| | Cəmi | 30 | | 20 | |

Pedaqoji təcrübə dövründə gələcək ibtidai sinif müəllimlərinin yiyələnməli olduğu bilik və bacarıqların minimumu aşağıdakı kimi müəyyənləşdirilmişdi: 1) uğurlu dərs aparmaq, dərsin məntiq ardıcıllığını müəyyən etmək; 2) şagirdlərin necə öyrənmələrini qiymətləndirmək; 3) zəruri tədris vəsaitlərini seçmək; 4) şagirdlərin dərsdən sonra da öyrənə bilmək maraqlarını inkişaf etdirmək; 5) şagirdlərin nailiyyətlərini (irəliləyişlərini) dəyərləndirə bilmək; 6) şagirdlərə fərdi yanaşmaq, onları dəstəkləmək; 7) səmərəli öyrənmə mühiti yaratmaq; 8) sinfi idarə edə bilmək, səmərəli metodlar seçmək; 9) şagirdlərə problemləri görmək və onun səmərəli həlli yollarını axtarıb tapmaq bacarığı aşılamaq;10) təlim prosesində subyekt-subyekt münasibətlərini inkişaf etdirmək və s.

İbtidai sinif müəllimi hazırlığını həyata keçirən ali pedaqoji məktəblərdə pedaqoji təcrübəyə ayrılan saatların bölgüsündə cüzi fərqlər vardır.

Naxçıvan Müəllimlər İnstitutunda "İbtidai sinif müəllimliyi" ixtisasında pedaqoji təcrübəyə ayrılan saatlar aşağıdakı kimi bölünmüşdür.

***Cədvəl 3.***
*İbtidai sinif müəllimliyi" ixtisası üzrə pedaqoji təcrübədə metodistlərə ayrılan saatlar və aparılacaq dərslərin sayı*

| | Metodistlər | Metodistin saatı | Ümumi | İcmalla | Planla |
|---|---|---|---|---|---|
| 1. | Ana dili | 10 | 5 | 5 | 0 |
| 2. | Riyaziyyat | 11 | 6 | 5 | 1 |
| 3. | Həyat bilgisi | 2 | 1 | 1 | 0 |
| 4. | Texnologiya | 2 | 1 | 1 | 0 |
| 5. | Musiqi | 2 | 1 | 1 | 0 |
| 6. | Fiziki tərbiyə | 2 | 1 | 1 | 0 |
| 7. | Təsviri incəsənət | 2 | 1 | 1 | 0 |
| | Cəmi: | 31 | 16 | 15 | 1 |

Naxçıvan Müəllimlər İnstitutunda metodistlərə – 31 saat, pedaqoji rəhbərə – 4 saat, psixoloji rəhbərə – 2 saat, direktora – 2 saat, sinif müəlliminə – 17 saat vaxt ayrılır.

***Cədvəl 4.***
*Pedaqoji təcrübənin yekununa görə tələbənin toplaya biləcəyi ballar*

| № | Qiymətləndirilən sahələr | Ballar (maksimum) |
|---|---|---|
| 1. | Pedaqoji təcrübəyə davamiyyətinə görə | 10 |
| 2. | Sınaq dərslərinə (məşğələlərinə) görə | 50 |
| 3. | Pedaqoji işlər üçün | 10 |
| 4. | Psixoloji işlər üçün | 10 |
| 5. | Gündəlik | 10 |
| 5. | Tələbələrin hesabatına görə | 10 |
| | Cəmi: | 100 |

Deməli, gələcək müəllimlərin pedaqoji təcrübəsinin təşkili və keçirilməsi həmişə diqqət mərkəzində olmuşdur. 2021/2022-ci tədris ilindən Azərbaycan Respublikası Təhsil Nazirliyi ali təhsilin bakalavriatura səviyyəsində müəllimlik ixtisasları üzrə təhsil alan sonuncu tədris ilin tələbələrinin internaturasının (pedaqoji təcrübə müddətində) təşkili və keçirilməsi üzrə pilot layihə həyata keçirməyə başlamışdır. Belə ki, Təhsil Nazirliyi tərəfindən 2021/2022-ci dərs ilinin ikinci semestrində müəllimlik ixtisasları üzrə pedaqoji təcrübədə iştirak edəcək tələbələrin müxtəlif rayonlarda pedaqoji təcrübəsini internatura formasında təşkilinə başlanılmışdır. Layihənin şərtlərinə görə, iştirak etmək istəyən tələbə internatura (pedaqoji təcrübə) üzrə seçmək istədiyi rayon qeydiyyatında olmamalıdır. Tələbələrin internatura (pedaqoji təcrübə) keçəcəkləri yerlərdə mənzillə təmin edilməsi, Təhsil Nazirliyi və tələbəsi olduğu universitet tərəfindən tərəfindən aylıq əməkhaqqı verilməsi, internaturada (pedaqoji təcrübədə) uğurla iştirak etmiş tələbəyə MİQ imtahanlarının müsabiqəsində güzəştlərin edilməsi nəzərdə tutulmuşdur.

**Problemin aktuallığı.** Ali pedaqoji təhsil müəssisələrində gələcək ibtidai sinif müəllimlərinin peşə fəaliyyətinə hazırlığında pedaqoji təcrübə mühüm rol oynayır. Müasir dövrdə pedaqoji təcrübəni səmərəli təşkil etmək üçün pedaqoji təcrübənin təşkili tarixini və onun təkmilləşdirilməsini bilmək çox vacibdir.

**Problemin elmi yeniliyi.** Məqalədə gələcək ibtidai sinif müəllimlərinin peşə fəaliyyətinə hazırlığında mühüm rol oynayan pedaqoji təcrübənin təşkili tarixi aspektdən araşdırılır, tədqiq və təhlil edilir.

**Problemin praktik əhəmiyyəti.** Gələcək ibtidai sinif müəllimlərinin pedaqoji fəaliyyətə hazırlığında mühüm rol oynayan pedaqoji təcrübənin tarixi aspektdən araşdırılması müasir dövrdə pedaqoji təcrübənin daha səmərəli şəkildə təşkilinə kömək edə bilər.

**Ədəbiyyat:**

1. Ушинский, К.Д. Избранные педагогические произведения в 2-х т. / К.Д Ушинский. – М.: Педагогика, – 1974. -Т.1. – 583 с.
2. Rüstəmov, F.A. Azərbaycan Dövlət Pedaqoji Universitetinin tarixi (1921-2021). –Bakı: ADPU, – 2021, – 384 s.
3. Шацкий, С.Т. Школа для детей или дети для школы . // С.Т. Шацкий. -Избр. пед. соч. в 2т. – М., 1980. – Т.2. – с.39-85.
4. Постановление ЦИК СССР от 19 сентября 1932 г. «Об учебных программах при режиме в высшей школе и техникумах». – М., 1932. – 21с.
5. "Ali (orta ixtisas) təhsili müəssisələri tələbələrinin ixtisas üzrə təcrübəsinin keçirilməsi haqqında Əsasnamə"nin təsdiq edilməsi haqqında // https://e-qanun.az/framework/15508

**E-mail:** ulviyyenagiyeva921@gmail.com

**Rəyçilər:** *ped.ü.elm.dok., prof.* **F.A. Rüstəmov,**
*ped.ü.fəls.dok., dos.* **H.A. Cəfərov**
**Redaksiyaya daxil olub**: 22.04.2022.